*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

31 MAY
2022-Cİ İL
№ 010 (157)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## 26 MAY – MÜSTƏQİLLİK GÜNÜ TBİLİSİDƏ TƏNTƏNƏLİ QEYD OLUNUB









“Gürcüstan üçün Avropa yolunda tarixi imkan yaranıb. Bu yol qan tökmədən və qurbanlarsız mümkün olmayıb, əcdadlarımız tərəfindən salınıb”. Bu fikirləri Gürcüstan Prezidenti Salome Zurabişvili 26 May – Müstəqillik Günü münasibətilə Tbilisidə Azadlıq meydanında keçirilən təntənəli mərasimdə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, ümumi dəyərlər Gürcüstanı Avropa sivilizasiyası ilə çoxdandır bağlayır: “Biz və Avropa bu ənənələri davam etdirməliyik. Biz yaxşı anlamalıyıq ki, bu dəyərlərin qorunması diktə olunmuş iradənin yerinə yetirilməsi, milli identikliyin itirilməsi deyil, Avropaya yaxınlaşmaq özümüzə qayıdışdır. Bu gün yaranmış real şansı əldən versək, nə əcdadlarımız, nə də gələcək nəsil bunu bizə bağışlayar”.

Dövlət başçısı bu gün Gürcüstan qarşısında yeni vəzifələrin durduğunu qeyd edərək onların yerinə yetirilməsi üçün ilk növbədə birlik və uzaqgörənliyin tələb olunduğunu deyib.

Daha sonra çıxış edən Baş nazir İrakli Qaribaşvili deyib ki, Gürcüstanın əsas məqsədi müasir Avropa dövləti qurmaqdır: “Builki Müstəqillik Günümüz xüsusi tarixi anda qeyd edilir. Martın 3-də Gürcüstanın Avropa İttifaqına üzvlüyə namizəd ölkə olması üçün müraciət imzalamışam. Bu, Gürcüstan tarixində tamamilə yeni mərhələnin başlanğıcı olub”.

Hökumət başçısı qeyd edib ki, qısa vaxt ərzində Gürcüstanda Avropa İttifaqına yaxınlaşmaq üçün bir sıra mühüm addımlar və islahatlar həyata keçirilib.

İ.Qaribaşvilinin sözlərinə görə, qlobal çağırışlara baxmayaraq, Gürcüstanda sabitlik və inkişaf hökm sürür: “Gürcüstan Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Ölkəmiz İttifaqın tərəfdaşları arasında lider mövqeləri tutur. Biz Avropa İttifaqından ədalətli qərar gözləyirik”.

Parlament sədri Şalva Papuaşvili, müdafiə naziri Cuanşer Burçuladze də çıxış edərək Müstəqillik Gününün əhəmiyyətindən danışıblar, xalqı və xaricdə yaşayan gürcüləri bayram münasibətilə təbrik ediblər.

Çıxışlardan sonra Müstəqillik Gününün qeyd olunduğu son 31 il ərzində ilk dəfə olaraq Avropa İttifaqının (Aİ) himni səsləndirilib, helikopterlər Gürcüstan və Aİ bayraqları ilə Tbilisi səmasında uçuşlar yerinə yetiriblər.

Mərasimdə hökumət üzvləri, parlament, diplomatik korpusun nümayəndələri, hərbi attaşelər və digər rəsmi şəxslər iştirak ediblər. Azadlıq meydanında ilk olaraq Gürcüstanın Müdafiə Qüvvələrinin hərbçiləri, xüsusi təyinatlılar, ABŞ hərbçiləri, hərbi məktəblərin kursantları marşla yürüş ediblər. Uşaq xoru Gürcüstan himnini ifa etdikdən sonra ölkənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca hərbi xidmətə çağırılanların ölkə üzrə andiçmə mərasimi baş tutub.

Xatırladaq ki, 1918-ci il mayın 26-da Gürcüstanın Milli Şurası dövlət müstəqilliyi aktını qəbul edib. Noe Jordaniانın başçılıq etdiyi ilk demokratik respublika iki il yarım mövcud olub. Gürcüstan dövtəl müstəqilliyini 1991-ci ilin aprelin 9-da yenidən bərpa edib.

Səh. 2 AİLƏ - Hacı Bəkiroğlu yazır

Səh. 3 AİLƏ DƏYƏRLƏRİ VƏ DƏYİŞƏN DÜNYA - Lamiyə Hacıyeva yazır

Səh. 4 “NAEC” İMTAHANLARLA BAĞLI SUALLARA CAVAB VERİB

Səh. 5 MƏN EVLƏNMƏK YOX, OXUMAQ İSTƏYİRƏM - Tünzalə Əliyeva yazır

Səh. 5 QİYMƏTLİ YÜKÜNÜ NƏSİLLƏRƏ YETİRƏ BİLMƏYƏN BAHALI KİTABLAR - Aytən Fətullayeva yazır

Səh. 5 MƏNƏVİ MÜSTƏQİLLİYİMİZ VƏ AZADLIĞIMIZ - Alina Fətullayeva yazır

Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## TÜRKİYƏ PREZİDENTİ MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK ÜNVANLAYIB



“İki strateji müttəfiq - Türkiyə və Gürcüstanın hazırda olduğu kimi, gələcəkdə də regionda sülh, sabitlik və dirçəlməyə töhfə verməkdə davam edəcəyinə səmimi qəlbdən inanıram”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Gürcüstanın Müstəqillik Günü münasibətilə Baş nazir İrakli Qaribaşviliyə ünvanladığı təbrikdə bildirib.

O, öz və Türkiyə xalqı adından hökumət başçısı və gürcü xalqını təbrik edib: “Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost gürcü xalqına isə firavanlıq və tərəqqi arzulayıram”.



# AİLƏ

Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Cəmiyyətin var olmasında fərdlərin bir araya gələrək təşkil etdiyi və müqəddəs bir müəssisə olaraq dəyərləndirdiyimiz ailə, demək olar ki, bütün dinlərdə də diqqət mərkəzində olmuş və bu müəssisənin qorunmasına çalışılmışdır.

Ailə nikah vasitəsilə bir araya gələn qadın və kişinin qurduğu bir bağla meydana gəlir. Dinimizdə də nikaha əhəmiyyət verilmiş və bu ənənənin qorunması yolunda çalışılmışdır.

Bununla belə, son zamanlarda yaşanan modernləşmə və dünyəviləşmə kimi genişmiqyaslı dəyişikliklər fərdlərin evlilik və ailə həyatına baxışını əhəmiyyətli dərəcədə dəyişmişdir.

İslamın evlilik və ailə həyatına böyük önəm verdiyi, bu qurumlara həm Quranda, həm də sünnədə əhəmiyyətli yer ayırdığı görülməkdədir. Qurani-Kərimdə "Ünsiyyət edəsiniz deyə sizin üçün özünüzdən (öz cinsinizdən) zövcələr xəlq edib aranızda sevgi və mərhəmət yaratması da Onun (varlığının) dəlillərindəndir..." (Rum, 21). Hədisdə isə "Qadınlara bənzəməyə çalışan kişilərə Allah lənət etsin" buyurulur (Əbu Davud Libas, 30, Camius-Sağir 2/124).

Diqqət etsək görərik ki, ayədə ailə quruluşunu möhkəm təməllər üzərində qurmaq üçün sevgi və mərhəmət kimi ünsürlərə yer verilmişdir. Bu məsələlər birliyin, həmrəyliyin, sülhün təmin olunması üçün çox vacibdir.

Cinslərin bir-birinə bağlanmasına təsir edən digər mühüm amil də onlara çoxalma, başqa sözlə, törəmək gücü və qabiliyyətinin verilməsidir. Bu hiss və güc bəşər övladının qorunub saxlanması üçün çox vacibdir. Halbuki, ilahi iradə bu ehtiyacı qanuni şəkildə, yəni evlilikdə qeydə almışdır. Bu ehtiyacın qeyri-qanuni yollarla təmin edilməsi zina kimi müəyyən edilmiş, zina və ona səbəb olan hər şey qəti şəkildə qadağan edilmişdir. Bununla birgə evlilik özü ilə birlikdə mehir, ailənin qorunması, övladların bərabər şəkildə sevilməsi, onların düzgün tərbiyə edilməsi kimi bir çox məsuliyyətlər gətirməkdədir.

Ancaq zamanımızda qloballaşan dünyada ailə həyatına əhəmiyyət verməyən və nəfsi və zövqü üçün yaşayan nəsil yetişməkdədir. Bu nəsil isə öz həmcinsləri ilə ailə qurmağı, cinsi münasibətdə olmağı üstün tuturlar ki, bu da həm dini nöqteyi nəzərdən, həm də milli mentalitet baxımından əxlaqsızlıq olaraq görülməkdədir. Çünki ailə bir kişi və bir qadının evlənməsi ilə və uşaqların olması ilə meydana gəlir. Ancaq iki kişinin və ya iki qadının bir-birilə evlənməsi ailə olmaz. Nə yazıq ki, bu gün bu əxlaqsızlığı dəstəkləyən, buna mədəniyyət, inkişaf və ya irəlilik deyən gənclərimiz də az deyildir.

Həmcinslərin cinsəl əlaqəsi hər dövrdə və hər mədəniyyətdə əxlaqsızlıq olaraq dəyərləndirilmiş və bütün dinlərin də bu əxlaqsızlığa qarşı mübarizəsi olmuşdur. Elə bu səbəblə də ölkəmizdə cinsi azlıqların yürüşü keçirilən günü, yəni 17 may tarixini Ailə Müqəddəsliyi Günü olaraq qeyd etməyə başlayıblar.

Ailə həyatı bəşəriyyət yaranandan bəri mövcuddur. Bundan əlavə, ailə institutu bütün tövhid dinlərində yüksək yeri tutmuşdur. Qiyamətə qədər də bu əhəmiyyətli yeri tutmaqda davam edəcəkdir.

## QARDABANİDƏ GÜRCÜSTANIN VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK GÜNLƏRİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Qardabani Gənclər Mərkəzində 26 May – Gürcüstanın Müstəqillik Günü və 28 May – Azərbaycanın Respublika Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbir Gürcüstanın və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Sonra Qardabani Gənclər Mərkəzinin icraçı direktoru Hacı Hacıyev Gürcüstan və Azərbaycan xalqını təbrik edib.

Qardabani Gənclər Mərkəzinin nəzdində fəaliyyət göstərən dil kurslarının tələbələrindən Aytən Fətullayeva 26 May, Alina Fətullayeva isə 28 May haqqında məlumat veriblər, Çiyalə Osmanova isə Vətən haqqında şeir səsləndirib.

Tədbirdə "Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlu, "BEEZ" Uşaq Teatrının qurucusu və bədii rəhbəri Binəli İslamoğlu, müəllimlər, şagirdlər iştirak ediblər.

## İRAKLİ QARİBAŞVİLİ: "GÜRCÜSTANIN AVROPA İTTİFAQINA ÜZVLÜKDƏN BAŞQA ALTERNATİVİ YOXDUR"

"Gürcüstanın Avropa İttifaqına üzvlükdən başqa digər alternativi yoxdur". Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Davos İqtisadi Forumunda panel müzakirəsi zamanı deyib.



Onun sözlərinə görə, Gürcüstan Aİ-nin çox etibarlı və sadiq tərəfdaşıdır.

"Avropa İttifaqına üzvlük yalnız Gürcüstan hökumətinin deyil, Gürcüstan xalqının seçimidir. Biz Avropa ilə eyni dəyər və prinsipləri bölüşürük. Aİ ilə 2014-cü ildə assosiativ saziş imzalanıb. Bu, əsas sənəddir və son məqsədimiz İttifaqın tamhüquqlu üzvü olmağımız üçün yol xəritəsidir. Gürcüstanın Avropa İttifaqı ilə azad ticarət və vizasız rejimlə bağlı əldə etdiyi sazişlər də əhəmiyyətli nəticələrdir. Gürcüstanı Aİ-yə üzvlüyə yaxınlaşdıran hər bir addım bizim üçün qəbuledilləndir. Biz Aİ-yə yaxın olmaq üçün maksimum bacardığımızı edəcəyik", - deyə Baş nazir bildirib.

## LAŞA DARSALİA: "AZƏRBAYCAN XALQI GÜRCÜSTAN ÜÇÜN ÇOX DƏYƏRLİDİR"

"Azərbaycan xalqı Gürcüstan üçün çox dəyərli, Azərbaycan isə strateji tərəfdaşdır". Bunu Gürcüstanın xarici işlər nazirinin I müavini Laşa Darsalia Tbilisidə Azərbaycanın Gürcüstandakı səfirliyinin 28 May – Müstəqillik Günü münasibətilə təşkil etdiyi rəsmi ziyafətdə jurnalistlərə açıqlamasında deyib.

O, Gürcüstanın Azərbaycanla xüsusi münasibətlərinin olduğunu söyləyib: "Yüz il bundan öncə biz bir yerdə müstəqillik yolunda addımlamağa başladıq və bu gün də xalqlarımız arasında möhkəm əlaqələr davam edir. Səmimi qəlbdən Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. Yaşasın Azərbaycan-Gürcüstan dostluğu!"

## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ ARIXLI KƏNDİNİN MƏKTƏBİNDƏ OLUB



Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Bolnisi rayonunun Naxiduri (Arıxlı) kəndinin orta məktəbinə baş çəkib. O, deputatlarla birgə azərbaycandilli təhsil müəssisəsinin IV sinif şagirdlərinin gürcü dili dərsində iştirak edib.

Spiker və parlament üzvləri dövlət dilinin mənimsənilməsinin vacibliyini müzakirə etmək üçün Bolnisidə direktor, müəllim və yerli məktəblərin nümayəndələri ilə görüşüblər.

Ş.Papuaşvili Gürcüstanda yaşayan etnik azlıqların keyfiyyətli təhsilə əlçatanlığının təmin edilməsində parlamentin rolu və gələcək planlardan danışıb.

Parlamentin Təhsil və elm komitəsinin rəhbəri Giorgi Amilaxvari, Regional siyasət komitəsinin rəhbəri Sozar Subari, İnsan haqları və vətəndaş inteqrasiyası komitəsinin sədri Mixeil Sarcveladze, deputatlar - Qoqi Meşveliani və Xatuna Kvitsiani görüş iştirakçıları qarşısında çıxış ediblər.

Deputatlar müəllimləri maraqlandıran sualları da cavablandırıblar.

G.Amilaxvari bildirib ki, rəhbərlik etdiyi komitə etnik azlıqların keyfiyyətli təhsilə əlçatanlığı ilə bağlı tematik araşdırmaya başlayıb. "Bunun üçün bizə yerində ümumilikdə tədris prosesi, eyni zamanda gürcü dilinin tədrisi prosesi ilə tanış olmaq vacibdir", - deyə G.Amilaxvari bildirib.

# AİLƏ DƏYƏRLƏRİ VƏ DƏYİŞƏN DÜNYA

Son illər dünyamızda baş verən hadisələr həyatın hər sahəsinə təsir etdiyi kimi, şübhə yox ki, baş verən hadisələrdən ailə də təsirlənməkdədir.

Dünyanın düzəni dəyişir – gündəlik həyatda, məişətdə, texnologiyada, siyasətdə və s. Dünya bir dəyişim içərisinə girmiş vəziyyətdədir. Düzdür, bu dəyişimin bir sıra inkişaf yönləri olsa da, danılmazdır ki, müsbət olmayan yönləri də var. Və müsbət olmayan bu yönlərdən ailə adlı müəssisə də öz nəsibini almaqdadır.

Dəyişən dünyada baş verən müsbət yönlü fəaliyyətlər insanı sevindirərkən, mənfi yönlü fəaliyyətlər bunun əksini bizlərə yaşatmaqdadır. Bu dəyişikliklərin mənfi yönündən bizlərin az təsir alması üçün də əmək sərf edilir. Görülən işlərdən bunu hiss etmək olur.

Bu məqaləmizdə həyatın bir çox hissələri arasında özünü cəmiyyətin varolmasında, cəmiyyətin qorunmasında təsdiqləmiş olan ailə adlı müəssisədən söz açacağıq. Həyatın, cəmiyətin, fərdin var olmasında, bu sadaladığımız üçlüyün birgə yekun şəkildə formalaşması üçün ailə həyatına diqqət şərtdir.

Dəyişən dünyada ailə adlı müəssisənin mənfi təsirlər almaması və qorunması üçün bir sıra addımlar atılmaqdadır. Lakin belə bir şey var ki, ailənin qorunması üçün atılan addımlar bu gün öz əksini tapmamaqdadır. Yəni ailənin hər mənada qorunması üçün atılan addımlar illər əvvəl bəlkə öz müsbət yönlü təsirini göstərsə də, son illər mənzərə ürək açan deyil.

Yuxarıda yazmış olduğumuz abzası bir az daha ətraflı açacaq olsaq, yəni ailədaxili sözlü şiddətin, məişət şiddətinin qarşısını almaq üçün dünya ölkələrində qanun dəyişikliyinə gedilir və ailədaxili hüzurun qorunması üçün yeni qanunlar qəbul edilir, var olan qanunlar daha da sərtləşdirilir. Bunların olması ailədaxili hüzurun qorunması üçün gözəldir, ancaq belə bir gerçək də var ki, bir insana bir davranışı etmə deyildiyi zaman o davranışı nəyə görə tərk etməli olduğunu anlatmadığımızda, səbəbini də özü sərbəst şəkildə anlamadığında o şəxs yenə bildiyi davranışa davam edir. Ancaq bir insanı bir davranışdan çəkindirdiyimiz zaman səbəbini izah edərək çəkindirməyə çalışsaq, yəni o davranışın nə nəticələr doğuracağını anladaraq çəkindirsək daha təsirli nəticə əldə edə bilərik.



Həmçinin insanların ailənin və cəmiyyətin hüzurunu qaçırdacaq davranışları nəyə görə sərgilədiklərinə də diqqət yetirməliyik. Bu hərəkəti meydana gətirən amili aradan qaldırmağa səy göstərməliyik və bununla yanaşı cəmiyyətin hər bir fərdini bu yöndə maarifləndirmək üçün çalışmalıyıq. Qanunların dəyişməsi, var olan qanunların sərtləşməsi tək başına yetərli olmaz, eyni ilə səbəb və məqsədin də üzərində durmalıyıq, həmçinin düzgün davranışın hüzurlu gələcəyə qapı aralayacağını da dərk etməliyik. Düzgün davranış çərçivəsini həyata keçirməyə çalışmalıyıq. Bu çərçivəyə cinsiyyət ayrı-seçkiliyi etmədən hər kəs aiddir. Münasibətlərdə anlayışın, xoşgörünün, qarşılıqlı hörmətin, özünü qarşıdakı insanın yerinə qoyaraq hadisələrə baxmağın və bir sıra saya bilmədiyimiz davranışların da bu çərçivəyə aid olduğunu bilməliyik.

Həyatın fani olduğunu dərk etdiyimiz kimi, bu fani həyatda var olma səbəbimizi də anlamalıyıq. Əgər bunu anlamasaq düzgü davranış həyata keçirməyimiz mümkün olmaz. Ona görə də etdiyimiz hər bir davranışın bir hesabı olacağını, bu hesab əbədi həyatda gedəcəyimiz ünvanı təyin edəcəyini də unutmamalıyıq.

Əbədi ünvanımızın hüzuru üçün fani dünyada hüzuru pozmamaq şərtdir. Olan və ya çıxması gözlənilən bütün hüzursuzluqlara qarşı hazırlıqlı olmalıyıq. Baş verən olumsuzluqların bizi üzməsinə icazə verməməliyik. Daim həyatın necə daha gözəl ola biləcəyi istiqamətində səy göstərməliyik ki, əbədi ünvanımız olan məkanda hüzur yol yoldaşımız olsun.

**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*

## GÜRCÜSTANLI DİN XADİMLƏRİ QARABAĞDA OLUBLAR




Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyinin təşkilatçılığı və Dövlət Neft Şirkətinin (SOCAR) Gürcüstan nümayəndəliyinin dəstəyi ilə 2022-ci ilin 19 may tarixindən 23 may tarixinədək Gürcüstanın din xadimlərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri baş tutub.

Səfər çərçivəsində heyət Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüb. Həmçinin G20 Dinlərarası Forum regional hazırlıq iclası çərçivəsində "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfrans iştirakçıları ilə birlikdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tərəfindən verilən rəsmi ziyafətdə iştirak etmişlər.

20 may tarixində Fəxri Xiyabana baş çəkərək Ulu Öndər Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edərək, xatirələrini ehtiramla yad edən heyət üzvləri Şəhidlər Xiyabanı və 3-cü Fəxri Xiyabanı ziyarət edərək, müstəqilliyimizin bərpa olunması yolunda və Vətən Müharibəsi döyüşlərində canlarından keçmiş qəhrəmanların məzarları qarşısında baş əymişlər.

Nümayəndə heyəti Bakının Heydər məscidinə, Azərbaycan İlahiyyət İnstitutuna və Gürcüstanın Azərbaycandakı Səfirliyinə də baş çəkib.

21 may tarixində qonaqlar azad olunmuş ərazilərdə olaraq Ağdam şəhərinin xarabalıqlarına baş çəkib, viran edilmiş Qarabağ xanlarının "İmarət" kompleksi və Cümə məscidini ziyarət etmişlər.

Ağdamdan sonra Füzuli rayonunun ərazisində olan heyət əvvəl Mərdinli kəndindəki məscidi ziyarət etmiş, sonra Füzuli Beynəlxalq Hava Limanına baş çəkmiş və qurulan müasir nəqliyyat qovşağı ilə, daha sonra Füzuli şəhərinin mərkəzi hissəsində görülən işlərlə əyani şəkildə tanış olmuşlar.

May ayının 22-də heyət Şuşa şəhəri ilə tanış olmuş, tarixi Şuşa Bəyannaməsinin imzalandığı yerə baş çəkmiş, bərpa olunan Natəvan, Üzeyir Hacıbəyli, Bülbülün büstlərini, Bülbülün ev muzeyini və Vaqifin muzey-məqbərə kompleksini ziyarət etmiş, eləcə də Cıdır Düzündə namaz qılmışlar. Həmçinin bərpa-təmir işləri aparılan Yuxarı Gövhər Ağa, Çuxur Məhəllə və Seyidli məscidləri ilə də tanış olmuşlar.

Qonaqlar 23 may tarixində Gəncə şəhərində Ermənistan silahlı qüvvələrinin 44 günlük Vətən müharibəsi zamanı Gəncəni raket atəşinə tutması nəticəsində dağılan əraziyə də baş çəkmişlər.

## TÜRKİYƏ-GÜRCÜSTAN DİPLOMATİK ƏLAQƏLƏRİNİN BƏRPASINDAN 30 İL ÖTÜR

21 may Türkiyə və Gürcüstan arasında diplomatik əlaqələrin bərpasının 30-cu ildönümü tamam olur. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ilin mayın 21-də yenidən qurulub.

Gürcüstanın Xarici İşlər Nazirliyinin əlamətdar tarix münasibətilə tviter hesabında etdiyi paylaşımda bildirilib: "1992-ci ildə sadiq dostumuz və strateji tərəfdaşımız olan Türkiyə ilə diplomatik əlaqələri bərpa etdik. Biz ölkələrimiz arasında əlaqələri alqışlayırıq və bütün sahələrdə yeni perspektivlərə ümid edirik".

Qeyd edək ki, Ankara və Tbilisi arasında ilk diplomatik əlaqələrin əsası 1920-ci ildə qoyulub. Otuz il öncə iki ölkə diplomatik münasibətlərin qurulmasına dair protokol imzalayıb.



## AZƏRBAYCAN-TÜRKİYƏ-GÜRCÜSTAN PARLAMENT ASSAMBLEYASI YARADILIR

Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradzenin bildirdiyinə əsasən, Azərbaycan-Türkiyə-Gürcüstan Parlament Assambleyası yaradılır.

Onun sözlərinə görə, bununla bağlı qərar Bakıda keçirilən görüşlərdə qəbul olunub: "Gürcüstan-Türkiyə-Azərbaycan Parlament Assambleyasının yaradılması üzərində işləmək üçün mühüm qərar qəbul etdik. Bu, parlamentlər arasındakı əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəldəcək. Assambleyanın yaradılması parlamentlərin xarici əlaqələr komitələrinin əməkdaşlıq formatının nəticəsi olacaq, lakin bizim format paralel olaraq fəaliyyətini davam etdirəcək".



N.Samxaradze deyib ki, xarici əlaqələr komitələrinin rəhbərlərinin növbəti illik toplantısının gələn ilin yazında Gürcüstanda keçirilməsi planlaşdırılıb.

# "NAEC" İMTAHANLARLA BAĞLI SUALLARA CAVAB VERİB



Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz müəllimlərin suallarını cavablandırıb:

**– Aparıcı və mentor müəllim statusu qazanmaq üçün testdə neçə məsələ olacaq?**

– İmtahan testində ümumilikdə 32 müxtəlif tipli tapşırıqdan istifadə olunub, onlardan 22-si cavabı seçmək imkanı olan tapşırıqdır, 2-si uyğunlaşdırma tapşırığıdır, 8-i açıq tapşırıqdır (onlar arasında tövsiyələr hazırlamaq, funksiya yazısı, vəziyyətin analizi və s. var).

**– Ümumi qabiliyyət testindəki uyğunlaşdırma tapşırığı barədə nə deyə bilərsiniz?**

– Uyğunlaşdırma tapşırığı 1 balla qiymətləndirilir. Tapşırıq cədvəl şəklində verilib və iki sütundan ibarətdir. Birinci sütunda şərt (hadisə, ifadə), ikinci sütunda güman edilən cavablar (terminlər, anlayışlar) verilib. İmtahan verən şəxs sütunlarda verilmiş məlumatı bir-birinə uyğunlaşdırmalıdır. 1 bal qazanmaq üçün bütün uyğunlaşdırmaları düzgün yazmalıdır.

**– Mentor statusu qazanmaq üçün keçid niyə belə yüksəkdir?**

– Keçid həddi qiymətləndirmənin tətbiq edilmə proseduru nəticəsində müəyyən edilib. Bu ardıcıl olaraq yazılmış prosedurdur və bunda sahə ekspertləri iştirak edirlər. Bu imtahan üçün ekspertlərin iştirak etdiyi, qiymətləndirmə standartlarını tətbiq edən prosedurlar aparılıb (ümimilikdə 15 ekspert iştirak edirdi) və nəticədə aparıcı, mentor olmaq istəyənlər üçün minimal keçid həddi müəyyən edilib. Gürcüstan Təhsil və Elm Nazirliyi də bunu təsdiq edib.

**– Yeni test nəyi yoxlayır və onu yazdıqdan sonra birbaşa status veriləcəkmi?**

– Test peşə bacarıqlarının qiymətləndirilməsinə yönəlib. Bu bacarıqlar bütün müəllimlərə təhsil prosesini idarə edən zaman lazımdır. Müəllimin peşə standartında aparıcı və mentor müəllim üçün əlavə tələblər və kompetensiyalar qeyd olunub. İmtahan testi buna əsaslanır. Statusla əlaqədar məsələlərə gəldikdə isə Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzə müraciət etməlisiniz.

**– Səhv verilmiş cavaba görə balımız azalacaqmı?**

– İmtahan verən şəxs səhv cavabı dairəyə aldığı halda sıfır bal alacaq.

**– Aparıcı və mentor statusu qazanmaq üçün test üzərində işləyən zaman nəyə diqqət yetirməliyik?**

– Test üzərində işləyən zaman verilmiş şərti və onunla bağlı sualları yaxşı analiz etməyiniz mühümdür. Sual həmişə konkretdir və konkret cavab tələb edir. Tapşırığın şərtindən kənara çıxmamalısınız. Bal konkret cavablara görə yazılır, ümumi müzakirəyə görə deyil.

Qiymətləndirmə meyarları, tövsiyə edilən ədəbiyyat, test nümunələri yayımlanıb. Yaxşı olar ki, onlarla tanış olasınız. Bu halda imtahanı daha yaxşı dərk edib, uğurla başa vura bilərsiniz.

**– Ümumtəhsil sistemi ilə əlaqədar qanunvericiliyi bilməyimiz lazımdırmı?**

– İmtahan testində qanunvericiliklə əlaqədar tapşırıq verilə bilər. Ancaq bu yalnız ümumi təhsillə əlaqədar məsələlərə aid olacaq və müəllimləri peşə standartı tələblərindən kənara çıxmayacaq. İmtahan verən şəxsin nəyi bilməsinin tələb olunduğu barədə proqram mərkəzin veb-səhifəsində yayımlanıb.

**– Funksiya yazısı ilə bağlı nə deyə bilərsiniz?**

– Funksiya yazısı imtahan verən şəxsin arqumentli sübut etmə tələbinin nə dərəcədə olduğunu, inandırıcı və ciddi şəkildə fikrini toplamağını yoxlayır. Yazının dolğun olması və 140-dan az söz olmaması mühümdür.

**– Peşə qabiliyyəti testinin daxili keçidi varmı?**

– Testin daxili keçidi yoxdur. İmtahan verən maksimum bala uyğun faiz göstəricisini aşmalıdır (aparıcı müəllim olmaq istəyənlər 60 %-dən artıq və mentor olmaq istəyənlər 75 %-dən artıq).

**– İmtahanda test çap edilmiş formadamı veriləcək?**

– İmtahanın bir qismi elektron formatda keçirilir, testin bukleti elektrondur, cavab kağızı isə paylanılacaq.

## PEŞƏ TƏHSİLİNƏ QEYDİYYAT AVQUSTUN 22-NƏ KİMİ DAVAM EDƏCƏK

Peşə təhsili proqramlarına qeydiyyat başlayıb və avqustun 22-nə kimi davam edəcək. Bu barədə Peşə Bacarıqları Agentliyi məlumat yayıb.

Qeydiyyat "vet.emis.ge" veb-səhifəsində, həmçinin Gürcüstan miqyasında fəaliyyət göstərən peşə təhsili proqramlarını həyata keçirən müəssisələrdə mümkündür.

*"2022-ci ilin qəbulu üçün peşə təhsili proqramlarına məhdud sayda yerlər var. Bütün Gürcüstan miqyasında ictimai və özəl peşə müəssisələri 200-dən artıq müxtəlif sahələrdə tələb olunan peşə təhsili proqramına 17 000-dən çox tələbə qəbul edəcək. Maraqlanan şəxslərin dövlətin tam maliyyələşdirməsi ilə istədiyi peşəyə sahib olmaq imkanı var.*

*Ötən il peşə təhsili proqramına qəbul olmaq üçün yeni qayda hazırlandı. Qaydaya əsasən, vahid qəbul halında yalnız ictimai deyil, həm də özəl müəssisələrə qəbul mümkün olacaq. Avtorizasiyadan keçmiş, eləcə də özəl müəssisələr tələbələri yalnız vahid şəkildə qəbul çərçivəsində ümumi platforma vasitəsilə qəbul edəcək.*

*Qeyd olunan yanaşma peşə təhsilinin əlçtanlığını artıracaq və bütün maraqlanan şəxslərin peşə təhsilinə qoşulmasını təmin edəcək.*

*Qeyd edək ki, inteqrasiya edilmiş proqamların sayı da artıb. Bu, baza təhsili olan şəxslərə peşə təhsili ilə yanaşı ümumi təhsil almaq şəraiti də yaradır. Proqramı başa vurduqdan sonra ümumi təhsil attestatına bərabər diplom veriləcək. Həmin diplom ali təhsil almaq imkanı verir.*

*İkili proqramların sayı da artırılıb. Qeyd olunan proqramlar işə əsaslanan təhsil yanaşması ilə həyata keçirilir. Bu isə peşəyə real mühitdə sahiblənməni nəzərdə tutur.*

*Qəbul prosesində rəngarəng mexanizmlərdən istifadə olunacaq. Bu isə proqramın spesifikliyini nəzərə almaqla tələbələrin seçilməsi-qiymətləndirilməsi istiqamətində kifayət qədər dəyişkən yanaşmaları nəzərdə tutur.*

*Bu gün Gürcüstanda fərqli ehtiyacı və imkanı olan şəxslərə formal peşə təhsilinin əlçatan olması mühümdür. Tbilisinin, eləcə də bölgələrin peşə təhsili müəssisələrində elan edilmiş bütün proqramlarda peşə təhsili almaq mümkündür.*

*Xüsusi təhsilə ehtiyacı olan peşə tələbələri üçün xüsusi, şəxsin fərdi ehtiyaclarına istiqamətlənmiş dəstək mövcuddur. Bu dəstək təhsil prosesinin uyğunlaşdırılmasını, fərdi təhsil planının tərtib edilməsini, inklüziv peşəkar təhsil mütəxəssisinin, şəxsi assistentin olmasını və başqa dəstəyi nəzərdə tutur. Eləcə də xüsusi ehtiyacı olan şəxsin proqramı praktiki olaraq sınamaq və əldə edilən nəticəyə əsaslanaraq ən yaxşı peşəni seçmək imkanı var.*

*Peşə təhsili proqramlarına aplikantların seçimi 24 avqustda başlayacaq və 20 sentyabra qədər davam edəcək",* - deyə məlumatda qeyd olunub.

## FƏRQLƏNƏN ŞAGİRDLƏRƏ KOMPÜTERLƏR SENTYABRDA VERİLƏCƏK

Fərqlənən şagirdlərə kompüterlərin verilməsi məsələsi aktual olaraq qalır. Oxucuların marağından irəli gələrək "etaloni.ge" Təhsil və Elm Nazirliyinə məsələ ilə bağlı müraciət edib. Kompüterlər şagirdlərə nə zaman veriləcək?!

Nazirlikdən bildiriblər ki, tender başa çatıb və qalib şirkət avqustun 15-nə qədər kompüterləri nazirliyə təhvil verməlidir. Bundan sonra nazirlik 2022-2023-cü tədris ilinin başlanğıcında, sentyabrda kompüterləri şagirdlərə verəcək.

Tenderə görə, 2019-2020-ci tədris ilinin uğurlu şagirdlərinin sayı 4461 nəfər, 2020-2021-ci tədris ilinin fərqlənən şagirdlərinin sayı isə 4385 nəfər təşkil edir.

"Mənim ilk kompüterim" proqramı 2009-cu ildən həyata keçirilir. Proqrama əsasən, baza pilləsini (VII, VIII və IX) fərqlənmə ilə bitirən ictimai məktəb şagirdlərinə kompüterlər verilir.

## UŞAQLARIN BAĞÇALARA QƏBUL YAŞI AZALDILIB

Uşaqların dövlət bağçalarına qəbul yaşı azaldılıb. Tbilisi Uşaq Bağçaları Agentliyindən "etaloni.ge"yə verilən məlumatda qeyd olunub ki, 2022-ci ilin sentyabrında 1 yaşı olan uşaqlar da müəyyən ilkin şərtlər əsasında bağçaya gedə biləcəklər.

Agentlikdən bildiriblər ki, bunun səbəbi təhsil naziri Mixeil Çxenkelinin birinci sinif şagirdləri ilə bağlı sərəncamıdır ki, dövlət bağçalarının yetirmələrinə də aiddir.

Bu o deməkdir ki, oktyabrın 1-nə qədər 2 yaşı tamam olan uşaqlar da bağçaya qeydiyyat oluna biləcəklər.

## MÜƏLLİMLƏRİN İŞƏ QƏBUL QAYDASINA DƏYİŞİKLİK EDİLİB

Dəyişikliyə əsasən, məktəbdə işə başlamaq üçün müəllim minimum 3 nəfərlik komissiya qarşısında söhbətdən keçməlidir, ictimai məktəb üçün isə komissiya üzvlərinin sayı minimum 5 nəfər olmalıdır.

Yeni sərəncama əsasən, komissiya üzvləri sonrakı qurumların nümayəndələri olmalıdır:

"Komissiya üzvü olaraq müstəqil şəkildə dəvət olunmuş mütəxəssis olmalıdır. İctimai məktəb komissiyasının üzvü olaraq isə Gürcüstan Təhsil və Elm Nazirliyinin Sahə Departamentinin, nazirliyin müvafiq ərazi orqanının təhsil resurs mərkəzinin nümayəndəsi, Müəllimlərin Peşə İnkişafı üzrə Mərkəzin nümayəndəsi və Müəllimlərin Peşə İttifaqının nümayəndəsi olmalıdır".

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# MƏN EVLƏNMƏK YOX, OXUMAQ İSTƏYİRƏM!



Günümüzdəki bir çox problemlərdən biri də erkən nikahdır. Valideynlər qızlarını məcburi olaraq evləndirirlər. Onların yerinə qərar verirlər, istəmədikləri, tanımadıqları adamla zorla evləndirirlər. Azyaşlı qızlarını oxutmaq əvəzinə, onların əllərindən dəftər-kitabı alırlar. Bunun səbəbi isə yoxsulluq, gender bərabərsizliyi, keçmişdən qalan ənənələr və sairdir.

Bütün dünyada uşaq nikahlarının əsas səbəblərindən biri sosial müdafiəsizlikdir. Erkən nikahın digər bir səbəbi valideynlərin qızlarının fiziki təhlükəsizliyi üçün qorxularıdır. Onlar ümid edirlər ki, ərləri qızlarını qarışıq cinsi həyatdan, zorakılıqdan və s. qoruya biləcəklər.

Azyaşlı qızlar məktəbdən çıxır və təhsilini dayandırır, gələcəkdə onun təhsil və peşə imkanları əhəmiyyətli dərəcədə azalır. Nəticədə belə bir qadın iqtisadi cəhətdən ərindən və ya qohumlarından asılı olur. Azyaşlı qadınlar yetkinlərə nisbətən daha çox məişət zorakılığının, cinsi istismarın və ər zorakılığının qurbanı olurlar. Erkən yaşda evlənənlərin əksəriyyəti tez hamilə qalırlar və nəticədə körpə və ana ölümü hallarının sayı artır. Erkən ailə quran qızların dünyaya gətirdiyi uşaqlar əqli və fiziki inkişafdan geri qalırlar, hətta tələf olma ehtimalı daha yüksək olur. Həmçinin doğuş zamanı orqanizmin bu qədər yükü qaldırmadığına görə qızlar həyatını itirirlər. Doğuşdan sonra da onlar bəzi xəstəliklərlə üz-üzə qalırlar.

Bir sözlə, erkən evliliklə uşaq yaşda qızların sağlamlığını alırlar. Fiziki və psixoloji baxımdan hazır olmadan çox erkən hamiləlik baş verir, doğuş və ölüm riski yaranır, ana və uşaq ölümlərinin sayı artır, yeniyetmələrdə reproduktiv sağlamlıqla bağlı problemlər yaşanır. Erkən nikahda olan qızlar cəmiyyətdən təcrid olunur. Yeniyetmə ana məktəbdən uzaqlaşır və cəmiyyət üçün yalnız evdar qadın kimi fayda vermiş olur. İntihar hadisələrinin sayı artır.

Bəzi valideynlər düşünürlər ki, erkən yaşda evlilik yaxşıdır. Bəzi valideynlər isə düşünürlər ki, qızlarını erkən yaşda evləndirsələr (oğlanın yaşının heç bir fərqi yoxdur) onların həyatı qurtarar, varlı insanla evlənər, bizim kimi olmazlar, kasıb olmazlar, "gün görərlər", istədikləri kimi yeyib-içib, gəzə bilərlər, istədikləri paltarı alıb geyinə bilərlər və s. Ancaq anlamırlar ki, hər şey pul deyil, bir ailədə xoşbəxtlik, sevgi olmasa o ailə olmaz.

Erkən evlilikdə valideynlərin olduğu qədər müəllimlərin də günahı var. Çünki məktəbdə uşağa tərbiyə verərkən qızları utancaq, qorxaq olaraq böyüdürlər. Onların təsirindən uşaqlar öz hüquqlarını müdafiə edə bilmirlər. Valideynləri onları evləndirərkən "MƏN EVLƏNMƏK YOX, OXUMAQ İSTƏYİRƏM" deyə bilmirlər.

Müəllimlərin və valideynlərin olduğu qədər uşaqların da öz günahları vardır. Məsələn, valideyn onu zorla evləndirərkən qismətlərinə boyun əyirlər, heç kimdən kömək almırlar, polisə, uşaq hüququnu müdafiə edən mərkəzlərə bildirmirlər, çünki qorxurlar, mənim də qismətim budur deyib boyun əyirlər. Hətta bəziləri intihar edirlər. Qızları erkən yaşda evləndirməklə yanaşı, oğlanlarını da istəmədikləri, tanımadıqları insanla zorla evləndirirlər.

Bəzi valideynlər düşünürlər ki, əgər qızlarını və oğlanlarını erkən yaşda evləndirməsələr onlar pis yola düşərlər, sevgililəri olar və onlarla qaçarlar.

Uşaq nikahlarının qarşısını qızların hüquqlarını genişləndirməklə, valideynlərə erkən nikahın riskləri barədə məlumat verməklə, yerli cəmiyyətdə informasiyanı artırmaqla, qızların təhsilinə dəstək verməklə, qızlar və onların ailələri üçün iqtisadi imkanları genişləndirməklə almaq olar.

"GƏLİN BƏRABƏR ERKƏN EVLİLİYƏ YOX DEYƏK!".

**Tünzalə Əliyeva**
*Kalinin ictimai məktəbinin 11-ci sinif şagirdi*

# QİYMƏTLİ YÜKÜNÜ NƏSİLLƏRƏ YETİRƏ BİLMƏYƏN BAHALI KİTABLAR



Bu yazını yazmağımın səbəbi çoxdandır məni narahat edən kitab qiymətləridir. Belə düşünürəm ki, bu mövzu sadəcə məni yox, başqa kitabsevərləri də narahat edir. Belə ki, günümüzdə ən böyük problemlərdən biri də elə budur.

XVI-XVII əsrlərdə yaşamış ingilis filosofu və yazıçısı Frensis Bekon belə demişdir: "Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir". Bu sözləri deyərkən Frensis Bekon öz yaşadığı dövrdə kitaba verdiyi qiyməti isbat etməyə çalışmışdır.

Bəli, həqiqətən də kitablar Frensis Bekonun da dediyi kimi, insanları düşündürən, onları həyatın anlamını və mənasını dərk etməyə kömək edən əsl fikir gəmiləridir. Ancaq təəssüf ki, bəzi insanlar bundan faydalana bilmirlər.

Ötən günlərdə müəllimimiz bizə "siz kitab oxumursuz, ona görə də öz ana dilinizdə sərbəst və doğru şəkildə danışa bilmirsiz" dedi. Bu söz məni nə qədər narahat etsə də, doğru sözə nə demək olardı. Amma mən özümü saxlaya bilməyib "bəli, müəllim, siz haqlısınız, biz öz ana dilimizdə sərbəst şəkildə danışa bilmirik, amma kitab oxumuruq fikri doğru deyil" dedim. Bəlkə hər birimizin adından deyə bilmərəm, amma bəzilərimizin kitaba böyük marağı var, onlardan biri elə mənəm.

Son zamanlar bir çox insan kitabları xaricdən sifariş edir, xüsusilə də Türkiyədən. Buna səbəb isə Türkiyədən gələn kitabların qiymətinin sərfəli olması göstərilir.

Biz də həmin səhifələrdən kitablar sifariş edirik. Doğrudur, hansı dildə istəsən kitab sifariş edə bilərsən. Bizi ana dilimizdə kitab oxumadığımız üçün qınayırlar, amma bu bizim problemimiz deyil. Məsələ ondadır ki, digər ölkələrə nisbətən Azərbaycandan gələn kitabların qiyməti iki, hətta üç dəfə daha artıqdır.

Biz Gürcüstanda yaşayan azərbaycanlılar, xüsusilə də gənclər oxumaq istədikləri kitabları xaricdən sifariş verməyə məcbur oluruq. Azərbaycandan sifariş edəcəyimiz bir kitabın qiymətinə Türkiyədən iki, bəlkə də üç kitab ala bilirik. Kitabların baha olmasının törətdiyi fəsadlardan biri sosial vəziyyəti aşağı olan insanların Azərbaycan dilində kitab ala bilməməsidir. Qiymətləri yüksəltməklə oxumağa həvəsi az olan kütləni kitabdan daha da uzaq salmaqdan başqa heç nə etmirlər.

Kitabların baha olmasında ən pis vəziyyət yeni nəslin, yəni kitaba marağı olan gənclərin yetişməsində kitabın rolu aşağı düşür. Öz ana dilimizdə bu cür ədəbiyyatın yoxluğundan və baha olmasından öz doğma dilimizdə oxumaqdan məhrum oluruq. Bir sözlə, yad dilə konsentrasiya olmağa məcbur oluruq.

Əslində kitablar öz bahalığı ilə rəfləri bəzəmək üçün deyil, oxunması üçün lazımdır, ona görə də bu istiqamətdə işlərin görülməsinə ehtiyac var. Əsasən də Azərbaycan hökuməti Gürcüstanda yaşayan azərbaycanlı gənclərə nələrsə etməlirdirlər. Bunu məktəblərin kitabxanalarını təmənnasız şəkildə kitablarla təmin etməklə və ya hər hansı yolla kitabların uyğun qiymətə gətirilməsi ilə həll edə biləcəklərini düşünürəm.

Bəlkə də nə qədər qalaqlanmış kitablar lazımsız əşya kimi bir kənarda boynunu büküb durur. Bütün bu faktlara baxmayaraq, kitabsevər oxucu kimi mən özümüzün, yəni oxucuların tərəfindəyəm. Onsuz da nəşriyyat künclərində, mağaza vitrinlərində kitabları hər gün tozla qidalandırmaqdansa, onu ucuz qiymətə satmaq həm nəşriyyata daha az ziyan vurar, həm də kasıb oxucu evinə kitab apara bilər.

Kitaba həvəsin yaradılması və əlçatanlığı üçün müxtəlif yardımlar edilməlidir. Unutmayın! Oxumayan millətin uğurlu gələcəyi olmur!

**Aytən Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# MƏNƏVİ MÜSTƏQİLLİYİMİZ VƏ AZADLIĞIMIZ



Bu gün biz çox şanslıyıq ki, müstəqil bir ölkədə yaşayırıq. Doğrudur, azad olmağı hər kəs sevir. Bu həyatda kimsə mənə sual versəndə ki, ən sevdiyin şey nədir? Mən düşünmədən müstəqil və azad olmağımdır deyirəm.

Müasir dövrdə qadın, kişi, qoca, uşaq fərq etmədən hər bir insan öz haqlarını qoruyur, ancaq buna baxmayaraq bəzi insanlar öz fikirlərini, düşüncələrini deməkdən çəkinirlər, öz haqlarını qorumağa, səslərini çıxartmağa qorxurlar. Bunun isə əsas səbəbi insanların özləridir.

Gündəlik həyatımızda yaxınlarımız, dostlarımız, yaxud da ailəmiz bizim üzərimizdə basqı quraraq düşüncələrimizi, haqlarımızı, istəklərimizi, fikirlərimizi söyləməyə, qorumağa icazə vermirlər. Buna görə də bu basqılara məruz qalan insanlar həyata fərqli gözlə baxırlar, halbuki hər bir insan azaddır, hər bir insanın azad düşüncəsi və fikri olmalıdır. Hər bir kəs özünü qorumağı, haqsızlığın qarşısında səsini çıxartmağı bacarmalıdır.

Biz gənclər məktəbə qədər valideynlərimizin himayəsi altında böyüyürük, onlar necə istəyirlərsə elə edirik. Ancaq böyüdüyümüz zaman özümüzün şəxsi fikirlərimiz və düşüncələrimiz formalaşır, artıq öz haqlarımızı və hüquqlarımızı qorumağa başlayırıq. Ancaq bu o demək deyil ki, müstəqilik deyə hər şeyi edə bilərik. Müstəqillik və azadlıq hər şey etmək demək deyildir. Günümüzdəki gənclər azadıq deyərək özümüzə uymayan hərəkətlərlə başqalarının haqlarını və hüquqlarını pozuruq. Əsl azadlıq bu demək deyildir.

Hər bir kəsin azadlıq hüquqları vardır, buna görə də öz azadlığımızı qorumaq üçün başqalarının azadlıqlarını taptalamamalıyıq. Avraam Linkoln demişdir: "Başqalarının azadlığını əlindən alanların özlərinin azad olmağa haqqı yoxdur".

Məncə, müstəqillik və azadlıq oxumaq azadalığı, fikir azadlığı, ən əsası da sənət azadlığıdır. Bir çox gənclər peşə seçməkdə çətinlik çəkirlər, yaxud da seçdikləri peşə valideynlərinin xoşuna gəlmir. Buna görə də gənc tələbələr öz istədikləri peşəni yox, valideynlərinin istədikləri peşəni öyrənirlər. Bunun üçün də gələcəkdə öz işlərini sevmirlər və işlərində uğursuz olurlar. Hər bir insan fikrini azad şəkildə ifadə etmək hüququna, həmçinin gələcək peşələrini seçmək hüququna malikdir.

Dünyada insan düşüncəsi qədər azad olan ikinci bir şey yoxdur. Tutaq ki, hər hansı bir iş yerində müdir tərəfindən, yaxud məktəbdə müəllim tərəfindən haqsızlığa məruz qalırsan, ancaq səsini çıxartmağa, haqqını qorumağa qorxursan ki, işimi itirərəm, maaşımı verməzlər, məktəbdən qovularam, müəllim mənə pis söz deyər, semestrdə əskik qiymət alaram və s.

Tərbiyəmizi pozmadan öz şəxsi fikrimizi və düşüncələrimizi azad bir şəkildə demək hüququmuz vardır. Öz mənliyimizi, haqlarımızı, hüquqlarımızı və ən əsası da müstəqil və azad olduğumuzu unutmaq lazım deyil!

**Alina Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ
## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK
## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Qısırca yengə "Buy, bu zavala gələcək məni görmüş kimi söylər", - dedi və gedib yerində oturdu. Böyük xanların xatunları qəhqəhə çəkib gülürdülər. Gülməkdən gözlərindən yaş gəlirdi. İndi Boğazca Fatmaya dedilər, qalx sən oyna. O, yaxın durdu "Hey, şu dəli məğmun mənə də şayəd ancılayın olmaz sözlər söylər", -dedi. Lakin onu əmin etdilər, qızın qaftanını geyindirdilər və onu oynamağa buraxdılar. Beyrək yenə yuxarıda gətirilən şeirin birinci iki sətri ilə öz ifasına başlayır, sonra məlumat verir ki, yaxşı bilir o harada yaşayır, onun atının adı nədir və özünün adı nədir və nəhayət vurğulayır: "Sənin adın Qırq oynaşlu Boğazca Fatma degilmiydi? Dəxi eybin açaram, bəllü bilgil!" - dedi *(D.D.K., səh. 85; D.D.K., səh. 55; O.D.D.K.K., səh. 96).*

Söz uzanmasın deyə Beyrək yuxarıda xatırlanan xanımların biabırçı işlərini – oynaşlığını və qəhbəliyini açıb tökdü ki, bu da oğuzlar diyarında böyük biabırçılıq hesab olunurdu. Aləmdə onların başını kəsdi. Lakin onların həqiqi eyibini açıb tökməklə istehzanın şiddətinə bürüdü. Orada olan yüksək ictimaiyyətin qəhqəhələrinə səbəb oldu. Doğru ozanın ifşa etmənin gülüş silahı, hər şeydən öncə, onun dövründə imtiyaza malik xanımların ifşa olunmasına yönəldilmişdir. Lakin bu sarkazmın qamçısı bugünkü çağa da gəlib çatır və ələlxüsus, bugünkü azad davranışlı xanımları ayaq dırnağına kimi çılpaqlayır!..

İndi elə ilk sözün üstündə dayanaq. Nə çarə? Sonda Banıçiçək də məcbur oldu ki, oynaya. Qırmızı qaftanı geyindi, barmaqları görünməsin deyə qolları irəli çəkdi.

Bamsı Beyrək həmin an onu tanıdı və dedi:

***Mən bu yerdən gedəli dəlü olmişsan***
***Dəlim ağca qarlar yağmış, dizə yetmiş.***
***Xan qızının evində qul-xəlaiq dükənmiş...***
***Məşrəbə almış, suya varmış –***
***Biləgindən on parmağını sovuq almış.***
***Qızıl altun gətirün,***
***Xan qızına dırnaq yonun.***
***Eyiblücə, xan qızı, ərə varmaq eyib olar.***

Bu sözlər Banıçiçəyi qəzəbləndirdi. Çox hirsləndi. "Mən eyiblümiyəm kim, mana eyib qoşarsan? - dedi. Gümüş kibi ağ biləgin açdı, əlin çıqardı. Beyrəgin keçürdügi yüzük göründi, Beyrək yüzügi tanıdı. Burada söyləmiş: Sən ərə vararsan, altun yüzük mənimdir, ver mana, qız! – dedi". Xanın qızı cavab verir və deyir ki, mən Beyrəyə görə qanlı yaşlar tökmüşəm və ah-nalə etmişəm. Əgər sən mənim Beyrəyimsənsə və üzüyü istəyirsənsə, onun çoxlu nişanələri vardır və onu mənə tezcə de. Onda Bamsı Beyrək onların görüşünü, bir-birilə vuruşduğunu ətraflı xatırladır: "Üç öpüb bir dişləyüb, altun yüzügi barmağına keçürmədimmi?", - deyir. Bütün bunları dinləyəndən sonra Banıçiçək onu tanıdı, Beyrəyin ayağının altıma yıxıldı. Beyrəyin atının belinə atıldı və sevincək Beyrəyin ata-anasını muştuluqlamağa getdi, belə sevindirdi:

***"Arğab-arğab qara dağın yıxılmışdı, yucaldı, axır!***
***Qanlu-qanlu suların sovğulmişdi, çağladı, axır!***
***Qaba ağacın qurımışdı, yaşardı, axır!***
***Şahbaz atın qarımışdı, qulun verdi, axır!***
***Qızıl dəvələrin qarımışdı, köşək verdi, axır!***
***Ağ qoyunun qarımışdı, quzı verdi, axır!***
***On altı yıllıq həsrətin – oğulun Beyrək gəldi, axır!"*** *(D.D.K., səh. 89; D.D.K., səh. 60; O.D.D.K.K., səh.100).*

Müəyyən olunduğu kimi, təbrik, daha doğrusu, muştuluq ilkin hazırlanmış sxemi əhatə edirdi ki, qara ilə ağın, başqa cür, faciənin və xoşbəxtliyin ziddiyyətli qarşıdurması olurdu. Gətirilən çıxarışda qədim oğuzların bədbəxtliyi olaraq nəyi hesab edirdi: dağları dağıtmaq, çayları soğulmaq, kölgə salan ağacı qurutmaq, atı, dəvəni qısırlamaq, qoyunu sonsuz etmək. Bütün bunlar bizi qədim həyat tərzininin təbiət və heyvanlar aləmi ilə necə harmonik olaraq bir-birinə qovuşması ilə yaxşıca məlumatlandırır. Eyni zamanda təbiətdə hökm sürən qayda-qanunu pozanlar onlar üçün bədbəxtliyi və faciəni gətirən idi. Buna görə də bu muştuluğa daha artıq emosiya qüvvəsi əlavə olunması üçün təstiq-inkar forması ilə verilir. Bir sözlə, zülmətin fonunda işığın parlaqlığı özünü bürüzə verir. Mənim inamıma görə, bədii effektin və onun dərk edilməsindən biri, demək mümkümdür ki, əsas spesifikliyi təbiətin və onun hadisələrinin insani xüsusiyyətlərlə və təbiətlə müqayisə-qarşıdurmalarla üzərə çıxmasıdır ki, bu da Orta əsrlərin uzun dövrlərində, əvvəlcə təbiət və insanın bir növ eyniyyəti demək idi, iki canlı şəkildə dərk edilmiş anlayışın təbiətlə insan arasında tən olmaq əlamətini qoymaqdır. İkincisi də, burada Orta əsrlərin insanın təbiətlə yaxınlığı və onunla birgə yaşayışın, birgə düşüncənin real faktı özünü bürüzə verir. Buna görə də həmin dövrün oxucusu üçün aydın və məqbul olanlar bugünkü ictimaiyyət üçün ola bilsin ki, yad və qeyri məqbul olsun.

Beyrəyin sağ qalması onun ata-anasının və yaxınlarının, bütün Oğuz bəylərinin böyük sevincinə səbəb oldu. Yalançı oğlu Yalancuq qamışlıqda gizləndi. Lakin Beyrək qamışlığa od vurdu. O da oradan çıxmağa məcbur oldu, Beyrəyin ayaqlarına döşəndi. Beyrək onun suçunu bağışladı və qılıncının altından keçirdi ki, bu da Oğuz igidləri üçün bir növ təhqir idi.

Boyun sonuna doğru daha bir maraqlı kontur təsvir edilir: Qazan bəy deyir: "Gəl muradına yetiş!" Lakin Beyrək deyir: "Yoldaşlarımı çıqarmayınca, hasarı almayınca murada irməzəm!" Dostlara qarşı bu cür sədaqət və düşmən üzərində qələbə istəyi bizim "Pələng dərisi geymiş pəhləvan"ın mənəvi əhval-ruhiyyəsini və cəsarətini bizə xatırladır.

Bu boy da xeyirxahlıqla sona yetir. Oğuzlar Bayburt qalasına hücuma keçirlər. Şəklü Məliyin başını kəsirlər və kafirləri məhv edirlər.

Beyrək öz dostlarını xilas etdi və qırx gün, qırx gecə düyün elədi və onun otuz doqquz igidi də çadır qurdu, ox atdı, taleyini axtarmağa getdi.

Əvvəlki boylarda olduğu kimi: "Dədəm Qorqud gəldi, şadlıq çaldı, boy boyladı, soy soyladı. Qazı ərənlər başına nə gəldügin söylədi. Bu Oğuznamə Beyrəgin olsun!" - dedi.

Yuxarıda müzakirə olunan boyların süjetlərinin inkişafı barədə müəyyən düşüncəyə görə, söz bir növ uzandı və indi növbəti boyların xüsusiyyətinə qısaca toxunmağa çalışacağam.

* * *

Növbəti boy Qazan bəy oğlu Uruz bəyin dustaq olmasını bizə nəql edir.

Qazan bəy ziyafət verdi və Oğuz bəylərini dəvət etdi. Kafir qızları altun sürahilərlə Oğuz bəylərinə şərab süzürdülər. Ulaş oğlu Salur Qazan hər birindən içirdi. Qazan sağ tərəfinə baxanda ürəkdən güldü, sol tərəfinə baxdı, həddindən artlq sevindi. Lakin qarşısında duran Uruzu görəndə, acı-acı ağladı. Oğlu Uruza bu xoş gəlmədi və soruşdu:

***"Qan Abqaz elinə mən gedərəm,***
***Altun xaça mən əlümi basaram,***
***Pilon geyən keşişin əlin öpərəm,***
***Qara gözlü kafir qızın mən aluram.***
***Dəxi sənin yüzünə mən gəlməzəm."*** *(D.D.K., səh. 92; D.D.K., səh. 63; O.D.D.K.K., səh. 104).*

Ata da deyir:

***"Bərü gəlgil, qulunum oğul!***
***Sağım ələ baqduğumda***
***qardaşım Qaragünəyi gördüm, –***
***Baş kəsübdür, qan dökipdir.***
***Çöldi alubdur, ad qazanubdur.***
***Solum ələ baqduğumda***
***dayım Arızı gördüm, –***
***Baş kəsübdür, qan dökipdir,***
***Çöldi alubdur, ad qazanıbdır.***
***Qarşum ələ baqduğumda səni gördüm,***
***On altı yaş yaşladın.***
***Bir gün ola, düşəm öləm, sən qalasan***
***Bərü gəlgil, qulunum oğul!***
***Yay çəkmədün, ox atmadın,***
***Baş kəsmədin, qan dökmədin,***
***Qanlu Oğuz içində çöldi almadın".***

Vaxt gələcək mən öləcəyəm və taxt-tacı kimə qoyum dedi. Burada Uruz atasına kobudcasına müraciət edir: "Dəvəcə böyümişsən, köşəkcə aqlın yoq! Dəpəcə böyümişsən, darıca beynin yoq! Hünəri oğul atadanmı görər, öğrənər, yoxsa atalar oğuldanmı öğrənür? Qaçan sən məni alub kafir sərhəddinə çıqardın, qılıc çalub baş kəsdin? Mən səndən nə gördüm, nə öğrənim?"

Oğuzlar üçün sitayiş kimi qəbul edilən ataya bu cür müraciət təəccüb doğurucu və gözlənilməzdir. Lakin bu, güman ki, oğulun qəzəblənməsindən və etikanı unutduğundan irəli gəlir. Halbuki, eyni zamanda elə burada oğul ataya oğuzların qəhrəmanlıq həyatında bərqərar olunan qaydanı, ənənəni xatırladır: oğul atadan nümunə götürür və döyüşməyi öyrənir, yoxsa bunun əksimi deyir.

Qazan istehza ilə oğlunun cavabını dəyərləndirir: "A bəglər! Uruz xub söylədi, şəkər yedi" - dedi. Bu da onun zehniaçıqlığından və rahatlığından xəbər verir. Lakin ata oğulun tərbiyəsində vəzifəsini də yaxşı dərk edir və təlim keçmək üçün oğlunu ova aparır.

Qara dağların yamaclarına ova çıxdı. Ov ovladı, quş quşladı və ahu və maral ovladı. Yaşıl çəmənlikdə çadır qurdu və yedilər, içdilər.

Bu ərəfədə Dadiani qalasından Başıaçıq və Axalsixe qalasından kafirlərin cəsusu bunları gördülər və hakimlərinə xəbər verdilər. On altı min kafir hərəkətə keçdi və Qara dəniz kimi coşanda, ata-oğul arasında söhbət oldu. Ata təcrübəsizliyinə görə döyüşdən boyun qaçırmağa cəhd göstərir, kafirlərin qurbanı olmaqdan qorxur. Oğlu bədəvi atını oynadaraq ona qarşı gəldi:

***"A bəg baba, eşidürəm.***
***Amma Ərafatda erkək quzu qurban içün,***
***Baba oğul qazanur ad içün.***
***Oğul da qılıc quşanur baba ğeyrətiyçün.***
***Mənim də başım qurban olsun səniniçün",***
***- dedi.*** *(D.D.K., səh. 94-96; D.D.K., səh. 65-67; O.D.D.K.K., səh. 107-110).*

Burda artıq atanın oğluna qarşı zərif hissləri aydınca görünür. Onu oğlunun həyatını qurban verəcək təcrübəsizliyi qorxudur, Lakin elə burada atanın ləyaqətinə quzu kimi qurban getməyə hazır olan oğulun qüruru özünü bürüzə verir. Başlıcası odur ki, ata-oğulun söhbətindən oğuzlarda möhkəm bərqərar olan baxış dairəsi müəyyən olunur ki, bu da belə səslənir: "Baba oğul qazanur ad içün. Oğul da qılıc quşanur baba ğeyrətiyçün!"

Nəhayət və nəhayət, ata oğlunu əmin edir və Uruz da öz dostları ilə uca dağlar başına çıxır. Buradan atasının qılıncına göz dikir. Elə burada ozan ata-oğul nübasibətlərinin daha bir mühüm ənənəsini bizə nəql edir: "Ol zamanda oğul ata sözin iki eləməzdi. İki eyləsə, ol oğlanı qəbul eləməzlərdi". Qədim oğuzların ənənəsi belə idi ki, bu da Qafqazın dağlıq yerlərində bu gün də qorunub saxlanılmışdır.

Oğul bir müddət atanın təkbaşına mübarizə apardığını izləyirdi. Lakin sonra öz yoldaşları ilə birlikdə düşmənin sağ cinahına hücum etdi və onu elə darmadağın etdi ki, düşünərdin "qaz sürüsünə şahin girdi". Halbuki, kafirlər hər tərəfdən Uruzun üstünə düşdülər, qırx igidini məhv etdilər və özünü də əsir alıb sürüyə-sürüyə apardılar.

Qazan oğlunu qoyduğu yerdə görə bilmədi, bəylərdən oğlum haradadır deyə soruşdu. Onlar da cavab verdilər: "Oğlan quş yürəkli olur. Qaçub anasına getmişdir". Qazan deyir: "Bəglər, Tanrı bizə bir kür oğul vermiş. Varayın, anı anası yanından alayın, qılıcla paralayayın, altı bölük edəyin, altı yolun ayırdında bırağayın. Bir dəxi kimsə yazı yerdə yoldaş qoyub qaçmaya!"

Budur həqiqi atanın əxlaqi mövqeyi ki, öz oğluna da xəyanəti bağışlamır. Bu da igidlik institutu tərəfindən işlənib hazırlanan qaydalara qarşı sədaqətlilikdən, onlara möhkəm şəkildə əməl olunmasından və yerinə yetirilməsindən xəbər verir.

Xan qızı Burla xatun Qazanın tək qayıtdığını və oğlu Uruzu görməyəndə qara bağrı sarsıldı, ürəyi yerindən oynadı və ərinə dedi:

***"İki getdin, bir gəlirsən, balam hanı?***
***Qara dövranda tapdığım oğlun hanı?***
***...Acı yellər əsmədən, Qazan, qullarım cingildəyir.***
***Sarımsaq otunu yemədən, Qazan, içim göynəyir.***
***...Yalnız oğul xəbərini, Qazan, söylə mənə".***

Bundan sonra şeirlərin bütöv silsiləsi gəlir ki, ürəyi dağlı ananın ah-naləsini bizə təqdim edir. Bu ah-nalə sxematik çərçivəyə salınmasına, möhkəm daimi obrazlarla dəfələrlə bəyan olunan duyğuları verməsinə və bütövlükdə poetik strukturun əsas götürüldüyü "təkrarlamanın" qaydası ilə müqayisə olunmasına baxmayaraq öz dövrü üçün də, bu gün də oxucuda öz səmimiliyi, şəffaflığı, duyğunun bilavasitəliyi və inandırıcılığı ilə, başlıcası isə, emosiyalı təsirin heyrətedici qüvvəsi ilə böyük təəssürat oyadır. Bu dəfə sözü onsuz da uzatdığımdan sitat gətirməkdəm çəkinirəm. *(D.D.K., səh. 107; D.D.K., səh. 78; O.DD.K.K., səh. 124).*

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## SOSİUM

### 14. NİDERLANDIN İKİNCİ YALANÇI CƏNNƏTİ



*(əvvəli ötən sayda)*

Narkotik maddələrdən istifadənin tarixi çox qədimlərə gedib çıxır. Belə düşünmək olar ki, onun tarixi insanın meydana gəlməsi ilə eyni vaxta düşür. İnsanın gündəlik qidalanmasında bitkilərin yeməli hissələrinin böyük rolu var idi. Qədim yığıcılar yığıcılıq prosesində bitkilərin cikini-bikini öyrənirdilər. Xəstələnəndə bu bitkilərdən ağrıkəsici kimi istifadə etməyi də öyrənmişdilər. Bəzi bitkilərin başgicəlləndirici xüsusiyyətlərini də sınaqdan keçirmişdilər. Kahinlərin bu bitkilərdən alınan maddələri qəbul etməklə ekstaza getdiklərini, bu maddələrin qəbulu nəticəsində adi insanlardan fərqli sözlər söylədiklərini də güman etmək olar. Sıravi tayfa üzvlərinin hamı kimi danışmayan, başqalarından fərqli hərəkətlər edən kahinlərə qorxu və həyəcanla baxmaları, onların hər sözünə vəhy kimi inanmaları da təbii görünməlidir. Kahinlərin bu bitkilərin sirlərini gizli saxladıqlarını, ondan istifadəni digər tayfa üzvlərinə yasaq elan etdikərini də bir güman kimi söyləmək olar. Sonrakı tarixi dönəmlərdə də, bunun bu şəkildə davam etdiyini, narkotik maddələrdən daha geniş miqyasda istifadə edildiyini də səsləndirmək olar. Bu maddələrdən dini, tibbi, siyasi məqsədlərlə istifadə edildiyini düşünmək olar. Orta yüzilliklərdə islam dünyasını uzun müddət qorxu altında saxlamış Ələmut şeyxi Həsən ibn əs-Sabbahın ismaililər təriqəti bəzi qaynaqlarda ‘‘assasin’’lər və ya ‘‘assasiyun’’lar da adlandırılır. Assasin sözü həşişin Avropa tələffüzüdür. Şeyxin müridlərinin həşişdən dadaraq, onun yolunda ölümə getməkdən belə çəkinmədikləri də danılmaz tarixi faktdır.

Əvvəllər narkotik tərkibli bitkilərin sirri məhdud sayda adama və ya müəyyən bir qrupa aid olsa da, get-gedə bu sirr faş olmuş, hamı bu sirrə vaqif olmuş, üzərindən sirr pərdəsi qaldırılmış bu maddənin, nə qədər qorxulu görünsə də, cəmiyyətin bütün üzvlərinin malına çevrilməsi dövrü başlamışdır. Bu gün narkomaniya dünyanın hər yerində cəmiyyəti təhdid edən bir bəla kimi görünməkdədir. Domokl qılıncı kimi bəşəriyyətin başı üstündən asılan bu bəla özüylə bərabər bir çox sosial-iqtisadi, siyasi təhlükələr də doğurmuşdur. Bu mövzu o qədər genişdir ki, biz ondan saatlarla danışa bilərik. Mən, sadəcə, bu barədə ümumi qənaətlərimi söyləməklə kifayətlənmək istəyirəm. Və bu mövzunu müasir Niderland müstəvisində davam etdirməyi düşünürəm.

Heç kimdən gizlin deyil ki, Niderland özünün ‘‘narkotik cənnəti’’ adlı imiciylə də dünyada tanınır. Artıq bildiyimiz kimi, bu imicdən xilas olmaq yolları barədə də düşünməkdədir. Bu imiclə assosiasiya olunan bir adından – Hollandiyadan imtina etməyi də gözə almış və 2020-ci ildən etibarən yalnız Niderland adından istifadə ediləcəyini dünyaya bildirmişdir. Bu yöntəmin necə təsir göstərəcəyi isə sonra yeridiləcək siyasətdən asılıdır. Prosesin necə gedəcəyini zaman göstərəcək.

Niderlandda narkotikdən istifadə qadağan edilməyib. Narkomanları buna görə heç bir cəza gözləmir. Narkotik maddələrin satıldığı kafe-barlar və ya kafeşoplar istənilən qədərdir. Ölkədə tərkibində narkotik maddələr olan, üzərində marixuana təsviri yerləşdirilən konfetlər, şokaladlar da istehsal edilir, açıq satışdadır. Almağın var, al. Narkotikdən istifadəmi etmək istəyirsən? Buyur, heç bir sıxıntısı yoxdur. Puluna minnət, pulunu ver, al. Pul sənin, can sənin, cəhənnəm Tanrının. Özün bilərsən. Narkotik maddənin təsiri ilə bir oyun çıxarmayana qədər heç kim sənə dəyib toxunmayacaq.

Narkotikdən istifadənin qanuniləşdirilməsi heç də ölkə əhalisinin başdan ayağa ‘‘narkomanlaşdırılması’’ siyasətinin yeridildiyi kimi anlaşılmamalıdır. Düzdür, bu maddənin leqallıq qazanmasınadək də cəmiyyətin müəyyən hissəsinin narkotik maddələrdən asılılığı olub. Hansı ölkədə yoxdur ki? Narkotikdən istifadənin leqal bir forma alması ən azından bütün ölkə miqyasında onlara nəzarəti asanlaşdırdı. Bundan başqa ölkəyə nə qədər narkotik maddənin gətirilməsi də müəyyən qədər nəzarətə götürüldü. Əslində narkotik maddələrin alqı-satqısına dövlətin tam nəzarət edə bilməməsini söyləsək daha doğru olar. Nədən ki, narkoticarətlə məşğul olanlar onun ölkəyə gətirilməsi, yayılması, satışının təşkil olunması sahəsində az qala hər gün yeni bir üsuldan, yeni bir plandan istifadə etdiklərindən bu sahəni nəzarətə almaq o qədər də asan deyil. Dünya miqyasında eyni mənzərənin müşahidə edildiyini də əlavə edək. Narkotik maddələr ticarəti ilə məşğul olanlar açığa çıxdığından dövlətin onlara göz olması da mümkün olur.

Narkotik maddələrə rəsmiyyət qazandırmaqla Niderland hökumətinin başqa bir məqsəd güddüyü də gizlədiləsi bir məsələ deyil. Narkotik maddələrin istifadəsinin azad olduğu bu ölkəyə hər il məhz narkotikin dadına baxmaq üçün yaxın-uzaq ölkələrdən milyonlarla insanın axışdığı da bəllidir. Öz ölkələrində narkotikdən istifadəyə görə təqib olunan, cəzalandırılan, hətta ölümə məhkum edilən bu adamlar qısa müddətlik də olsa azad şəkildə bu maddələrin dadına baxmaq, asudə nəşələnmək imkanı qazanırlar. Bu minvalla da Niderlandda narkoturizm çiçəklənir, ölkənin büdcəsinə sanballı vəsait daxil olur. Bu proses o qədər şəffaf hiss olunur ki, danılması mümkün deyil.

Narkotik maddələrin leqallaşdırılması, onların açıq satışda olması Niderlandı narkomanlardan ibarət bir cəmiyyət kimi təqdim etməyə əsas vermir. Mənim tanıdığım, az-çox təmasda olduğum adamların davranışı, səliqəsi, təmiz-tarıqlığı, zəhmətsevərliyi, yardımsevərliyi hollandlar haqqında daha müsbət rəy, daha fərqli fikir yaradır. Az qala bəs bunların narkomanları haradadırlar kimi bir sual vermək istəyirsən. Narkomanlar gözə dəymirsə, bəs narkotikin qanuniləşdirilməsi nəyə gərək? Bu sual ətrafında düşündüklərimi sizə danışmaq istəyirəm və bu düşüncələrə mənim şəxsi müşahidələrimin sonucu kimi baxmanızı rica edirəm.

Narkotikdən istifadənin qanuniləşdirildiyi, buna görə heç bir cəzanın verilmədiyi Niderland dünyanın inkişaf etmiş turizm ölkələrindən biridir. Yaxın-uzaq ölkələrdən Niderlanda gələnlərin sayında hər il artım müşahidə olunur. Dövlətin turizm sektorunun inkişafı üçün yeniliklər axtarması, yeni turist marşurutları açması, ölkənin turizm üçün cəlbedici olması üçün digər vasitələrə əl atması turist axınının güclənməsini şərtləndirir. Bunun üzərinə seks turizmini və narkoturizmi də əlavə etsək mənzərə bütün çılpaqlığı ilə qarşımızda canlanacaq. Narkotikin istifadəsinin leqallaşdırılması ölkənin turizm sektoruna əlavə canlanma gətirib. Narkotikin qanuniləşməsi ilə Niderland turizmi yeni bir donor əldə edib ki, onun sayəsində turizmdən gələn gəlirlərin nəzərəçarpacaq qədər artdığını heç bir statistik məlumata əsaslanmadan da söyləmək olar. Bunu həftəsonları qonşu ölkələrdən məhz asudə şəkildə narkotikin dadına baxmaq üçün gələnlərin sayına baxaraq da müəyyənləşdirmək mümkündür. Özünün narkotik azarını asudə şəkildə öldürməyə gələn bu adamların növbəti, deyək ki, ikinci, üçüncü dəfə də buraya dönmək, buradakı xidmətlərdən yararlanmaq istəyəcəklərini də unutmayaq. Öz qısa tətilləri müddətində bu müsafirlərin narkotikdən əlavə qalmaq üçün otelə, yemək üçün kafe-restorana üz tutacağı, Qırmızı Fənərlər küçəsinə baş çəkəcəyi, bir yerdən başqa yerə getmək üçün nəqliyyatdan istifadə edəcəyi, öz ölkəsinə qayıdarkən Niderlandla bağlı kiçik də olsa bir hədiyyə-filan da alacağı və bütün bunlar üçün cibini və ya kartını boşaldacağı da mübahisə doğurmayacaq dərəcədə ortadadır. Hər bir turistin xərclədiyi pul ölkədə turizmin inkişafı üçün yeni üfüqlər açır. Bu üfüqlərin genişlənməsində narkotikin qanuniləşməsi də müstəsna rola malikdir. Məsələ, fikrimcə, bu qədər bəsitdir. Güdülən məqsəd gizlədilməsi mümkün olmayan şəkildə açıq-aydındır.

Narkotik maddələr – istər təbii olsun, istərsə də kimyəvi – Niderlanda necə gətirilir, burada necə ayaq tutub yeriyir, satış məntəqələrinə necə çatdırılır? Bu suallara birmənalı cavab vermək, doğru-dürüst bir yol göstərmək mümkün deyil. Narkotik maddələrin ölkəyə gətirilməsi və ya yerli narkotik maddələrin istehsalı ilə bağlı müxtəlif versiyalar söylənilir. Bu versiyaların nə dərəcədə doğru olduğunu, nə dərəcədə həqiqəti əks etdirdiyini dəqiqliklə söyləmək çətindir. O üzdən ki, narkotik maddələr bazarı çoxçeşidli olması ilə, hər məhsulun fərqli mənbəyə malik olması ilə diqqəti cəlb edir. Bu, təkcə Niderlandın leqal narkotiklər bazarında deyil, dünyanın digər ölkələrinin açıq və ya gizli narkoticarətində də özünü göstərir. Məhsul çox, tələb başqa, təklif tamam ayrı, satış yöntəmi də tamam fərqli.

Elə düşünməyək ki, narkotik maddələr təkcə müəyyən olunmuş, dövlətin icazə verdiyi və nəzarət etdiyi yerlərdə satılır. Əksinə narkotik maddələrin küçədə satışı daha rəngarəng, daha fərqlidir. Küçə ticarətilə daha çox gəlmələrin məşğul olduğu söylənilir. Mən bunu özüm də müşahidə etmişəm. Onların arasında yerlilərin də olduğunu ehtimal etmək olar. Kafelərin qarşısında motesikletlərilə duran mərakeşli gənclərin səhərdən axşama qədər internet üzərindən narkoticarətlə məşğul olduqlarını müəyyənləşdirmək üçün mütəxəssis olmağa gərək yox. Kənardan baxanların avaraçılıqla məşğul olduqlarını zənn etdikləri bu gənclərin bir zənglə, bir mesajla müştərinin sifarişini yerinə yetirmələri suiçimi qədər asandır. Sifarişin göstərilən ünvana motosikletlə çatdırılması qısa müddətdə həyata keçirilən bir əməliyyatdır. Bu ticarətin motosikletlərlə həyata keçirilməsinin bir çox səbəbi var. Motosiklet sifarişin tez çatırılmasında əvəzsiz vasitə olduğu kimi, polis təqibindən yayınmaq, küçələrin maşın sıxlığında manevr etmək baxımından da üstün bir vasitədir.

Öz dükanlarında əlaltından narkotik satışı ilə məşğul olan farsları, böyük partiya mal gətirmək üçün az qala beynəlmiləl tərkibli dəstə quran türk, fars, zənci işbirliyini də müşahidə etdiyimi, onların qaranlıq işlərlə məşğul olmağa meylli tiplər olmasını sezdiyimi də deməsəm olmaz.

Evlərinin damında, açıq sahədə çətənə əkib becərənlərin və məhsulun satışını özləri reallaşdıran narkotacirlərin olduğunu eşitsəm də, gözlərimlə görmədiyimi demədən keçməyim.

Narkotik maddələrin ölkəyə gətirilməsinin ən yayğın və klassik formalarından biri haqqında danışmaq istəyirəm. Eşitdiyim əhvalat narkotiklərin ölkəyə necə gətirilməsi barədə cızılmış bir planın detallarından ibarətdir. Bu məsələdən gözümlə görmüş kimi danışmamın səbəbi də budur. Əhvalatı nəql edən tanışım bir neçə dəfə böyük oynamaq, böyük qazanmaq üçün bu yöntəmə baş vurmuş, xeyli pul-para itirmiş, sözün qısası, bu yolda uğursuzluğa düçar olmuş adam idi. Uğursuz əməliyyatlarından o qədər yana-yana danışırdı ki, eşidəndə az qala özümü həmin əməliyyatların içində hiss edirdim. Başına gələn başmaqçı olar demirlərmi? Mənim tanışım da bu işi az-çox bilən, başı çəkmiş adam idi. Onun danışdığı əhvalatı, daha doğrusu əməliyyat planını ağlabatan olduğuna görə, həm də mövzumuzun tamlığı xatirinə burada bütöv şəkildə verməkdən özümü saxlaya bilmədim.

Əməliyyat planına bir şirkətin qurulması ilə başlanır. Şirkət dövlət qeydiyyatından keçdikdən sonra rəsmilik statusu qazanır. Dövlət rüsumunu alır, xeyir-duasını verir. Plan işə düşür. Planın ən diqqətçəkən hissəsi isə şirkətin sahibinin kimliyi məsələsidir. Adətən belə şirkətlər Niderland vətəndaşı olmayan, pula ehtiyacı olan bir əcnəbinin adına rəsmiləşdirilir. Bu şəxsin qanunlardan o qədər başı çıxmaya da bilər. Bunun elə bir əhəmiyyəti də yoxdur. Sadəcə onun adına şirkət açılmasına razılığını verməsi gərəkdir. Sənəd işlərini şirkətin əsil sahibləri yoluna qoyurlar.

Təsis edilmiş bu cür şirkət vasitəsilə xaricdən ticarət məqsədilə mer-meyvə, bostan məhsulları və s. gətirilir. İlk əməliyyat adətən qanunlar çərçivəsində baş tutur. Bundan sonrakı əməliyyatlarda isə planın gizli hissəsi dövrəyə girir. Gətirilən malların arasında narkotik maddə yerləşdirilir. Gətirilən malın içərisində yerləşdirilmiş narkotik müəyyən yollarla ölkəyə daxil olur. Əməliyyat uğurlu alındıqda gətirilən mer-meyvə, məsələn, banan maya dəyərindən də aşağı satıla bilir. Tonlarla banandan gələcək qəpik-quruş onları maraqlandırmır. Onları qramı qızıl qiymətinə satılan narkotik maraqlandırır.

Bu qəbildən olan şirkətlərin ömrü qısa olur. Nədən ki, ya şirkətin əsl məramı ilk əməliyyatdan üzərə çıxır, dövlət onun varlığına son qoyur, ya da təsisçilər bir neçə uğurlu əməliyyatdan sonra özləri bu addımı atıb, şirkəti qapadırlar. İzi azdırmaq üçün.

Şübhələrin üzərlərindən aralanması üçün fəaliyyətlərini dayandırmış kimi görünən narkoticarətçilər yeni planlar qurur, yeni bir şirkət qurmağa tələsmirlər. Onlar da hər işin səbrlə görüldüyünü bilməmiş deyillər. Tələsənin təndirə düşdüyündən də xəbərləri var.

Gözləmə müddəti başa çatır. Yeni şirkət qurmağa start verilir. Bunun üçün yeni qurban axtarışına baş vurulur. Onların şərtlərini qəbul edən istənilən qədər əcnəbi də əmrə müntəzir bəkləmədə.

Adına şirkət açılan bu adamların qazancı nədir? Ən yaxşı halda 5-6 ay fəaliyyət göstərən bu şirkətlərin kağız üzərində rəsmi sahibi olan şəxslər hər ay üçün 1000-2000 avro qazanc əldə edirlər. Əgər əməliyyat uğurlu alınarsa, bu işlərin arxasında duranlar onlara 10-15 min avro birdəfəlik mükafat da verə bilərlər.

Narkotiki qadağan olunmuş meyvə də saya bilərik, insan ömrünü puç edən zəhər də. Niderlandın üstündən qadağanı götürdüyü bu meyvəni – narkotiki dadmağa dünyanın çox yerindən insanlar axışıb gəlir. Buna dəyərmi? Kimlərinsə milyonlara sahib olması üçün kimlərinsə damarlarından bu zəhərin keçməsi gərək. Niderland özünün bu imicindən, bu saxta profilindən imtina etməyi düşünürmü? Bilmirəm.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

31 MAY 2022-Cİ İL № 010 (157)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ “ახალი გზა” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## SOYAD SONLUQLARINI ASANLIQLA DƏYİŞMƏK OLACAQ




Gürcüstanın “Tarixi-mədəni ənənələrə uyğun soyadın dəyişdirilməsi hüququ haqqında” qanuna dəyişiklik ediləcək. Layihə artıq parlamentin bürosuna təqdim olunub. Bu barədə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Bolnisidə vətəndaşlarla görüşü zamanı bildirib.

Qanuna ediləcək dəyişikliklərdən sonra azərbaycanlılar soyadlarındakı “ov”, “ova”, “yev”, “yeva” sonluqlarını istədikləri digər sonluqlarla əvəz edə biləcəklər.

Parlamentin sədri bildirib ki, bu təşəbbüs fəal vətəndaş qrupları tərəfindən xeyli əvvəl irəli sürülüb. Parlament bu təklifləri nəzərə alıb və müvafiq müzakirələr də aparıb.

Qeyd edək ki, soyadların dəyişdirilməsi təşəbbüsü ilə ilk dəfə “Salam” qeyri-hökumət təşkilatı çıxış edib. Təşkilat ötən il “Soyadımı qaytar” devizi altında kampaniya aparıb və kampaniya çərçivəsində 27 mindən çox dəstək imzası toplayaraq parlamentə təqdim edib.

““Salam” təşkilatının təqdim etdiyi layihədə müəyyən texniki səhvlər olduğu üçün deputatlar məsələnin müzakirəsindən imtina etdiblər. Lakin sonradan hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyası həmin təşəbbüsə uyğun yeni qanun layihəsi hazırlayaraq parlamentə təqdim edib”, - deyə Ş.Papuaşvili qeyd edib.

## MÜXALİF “MTAVARİ ARXİ” TELEVİZİYA KANALININ DİREKTORU HƏBS OLUNUB



Gürcüstanın müxalif “Mtavari arxi” televiziya kanalının təsisçisi və direktoru Nika Qvaramia 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Bu barədə qərarı Tbilisi Şəhər Məhkəməsi qəbul edib.

N.Qvaramia məhkəmə zalında həbs edilib. O, günahsız olduğunu bildirib.

Qeyd edək ki, N.Qvaramia “Rustavi 2” telekanalının keçmiş baş direktorudur. O, bu teleşirkətə məxsus külli miqdarda pul vəsaitləri və əmlakın qanunsuz mənimsənilməsində, vəzifə səlahiyyətlərindən sui-istifadədə ittiham olunurdu. Jurnalist 2019-cu ilin iyulunda telekanalın sahibi dəyişəndən sonra baş direktor vəzifəsindən istefa verib, avqustunda “Mtavari arxi” telekanalını təsis edib.

## ORTA MƏKTƏBLƏRDƏ ŞAHMAT MƏCBURİ TƏDRİS EDİLƏCƏK

Gürcüstanda 2022-2023-cü tədris ilindən etibarən şahmat məcburi fənn kimi tədris olunacaq. Bu barədə qərarı ölkənin təhsil və elm naziri Mixeil Çxenkeli qəbul edib.

Qərara əsasən, şagirdlər şahmatı I sinifdə öyrənəcəklər.

İntellektual idman növünün orta təhsil müəssisələrində tədrisi üçün Gürcüstanın Milli Şahmat Federasiyası ilə birgə hazırlıq işləri aparılır.

Qərarda qeyd olunub ki, şahmat təhsil alanların diqqət, konsentrasiya, yaddaş, təhlil, məntiq, qərar qəbulu, məkanda səmtləşmə kimi bacarıqlarını yaxşılaşdırır.

Şahmatın təhsil sistemində tətbiqi Avropa İttifaqının 2012-ci ildə qəbul etdiyi bəyannamədə nəzərdə tutulub.



## ƏSLƏN SOĞANLIQDAN OLAN BOKSÇU ERMƏNİSTANDA QIZIL MEDAL QAZANIB



Ermənistanın paytaxtı İrəvanda keçirilən kişilər arasında boks üzrə Avropa Çempionatında Gürcüstanı təmsil edən Sahil Allahverdiyev qızıl medal qazanıb. Bu barədə Gürcüstanın Milli Boks Federasiyası məlumat yayıb.

Məlumatda qeyd olunub ki, yığma komandanın üzvü olan S.Allahverdiyev Gürcüstana çempionatda 48 kq çəki dərəcəsində ilk qızıl medalı qazandırıb. O, final qarşılaşmasında Bolqarıstandan olan rəqibini məğlubiyyətə uğradıb.

Federasiya qələbə münasibətilə bütün Gürcüstanı təbrik edib: “Final qarşılaşmalarında uğurlu start. Uğurumuz münasibətilə bütün Gürcüstanı təbrik edirik”.

## TBİLİSİDƏ “GERİ DÖNÜŞ” FİLMİNİN TƏQDİMATI OLUB



Mayın 28-i Gürcüstan Yaşılay Cəmiyyətinin “Sağlam yaşam təbliği üsulları” layihəsi çərçivəsində “Era Film” studiyası tərəfindən çəkilmiş, ssenari müəllifi və rejissoru Elnur Valizadə olan “Geri dönüş” adlı filmin təqdimatı keçirilib.

Filmin baş rollarında “Era Teatrı”nın aktyorları Alı Şərifov və Məryəm Əliyeva, köməkçi rollarda isə Ümman, Səma Sadiq, Benyamin Qasımoğlu və Mayar Seyidiyeva yer alıblar.

Məişət problemləri və qumarın cəmiyyətdəki fəsadlarından bəhs edən filmin təqdimatı “Tiflis Palace” mehmanxanasında baş tutub.

Təqdimat mərasimində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Tbilisi koordinatorunun müavini Saliha Güner Bayraktar, “Türk Hava Yolları Gürcüstan”ın müdiri Şerafettin Ekici, QHT və media nümayəndələri, Gürcüstan Yaşılay Cəmiyyətinin könüllüləri iştirak ediblər.

## GƏNC RƏSSAM ŞƏNAY SADİQİN İLK FƏRDİ SƏRGİSİ KEÇİRİLİB



Tbilisidə gənc rəssam Şənay Sadiqin “Dünya mifologiyaları və mədəniyyət” adlı ilk fərdi sərgisi keçirilib. Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin təşkilatçılığı ilə Axundov İncəsənət Qalereyasında təşkil olunan tədbir 18 May - Beynəlxalq Muzeylər Gününə həsr edilib.

Sərgidə Yunanıstan, Misir, Skandinaviya ölkələri, Türkiyə, Hindistan mifologiyasına aid mifik personajlar və müxtəlif motivlərin təsvir olunduğu akril boya ilə çəkilmiş 15 əsər təqdim edilib.

Sərgidə diplomatik korpus nümayəndələri, Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyinin əməkdaşları, azərbaycanlı və gürcü ziyalılar və gənclər iştirak ediblər.

Azərbaycanın Gürcüstandakı səfirliyi, SOCAR şirkətinin Gürcüstan nümayəndəliyinin dəstəyi ilə keçirilən sərgi mayın 25-dək davam edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.